

*Yüz il dövran sürən aşıq Ələsgər,*
*Min-min məclislərə yaraşıq oldu.*
*Çoxları saz tutub gəlib-getdilər,*
*Ələsgər zülmətdə gur işıq oldu.*
*Aşıq Ələsgər*

# Həyat və yaradıcılığı

Böyük el nəğməkarı, qüdrətli söz sərrafı Aşıq Ələsgər təxminən 1821-ci ildə Azərbaycanın qədim saz-söz məkanlarından olan Oğuz yurdunda - Göyçə elinin Ağkilsə kəndində dünyaya göz açıb. Əsasən əkinçiliklə məşğul olan atası Alməmməd kişinin böyük külfəti – dörd oğlu, altı qızı olub. Əlindən dülgərlik işləri də gələn Alməmməd saz çalmağı bacarmasa da, el arasında şair kimi tanınmışdı. Ailə kasıb olduğundan Alməmməd kişi Ələsgəri işləmək üçün Kərbəlayi Qurban adlı həmkəndlisinin evinə köməkçi verib. Özünün mərifət-qanacağı, qabiliyyəti ilə Kərbəlayi Qurbanın yanında hörmət qazanan Ələsgər bu evdə işlədiyi 4 il müddətində ailənin ən əziz adamlarından birinə çevrilir. Həmin illərdə Kərbəlayı Qurbanın yeganə qızı Səhnəbanı ilə Ələsgərin arasında bir-birinə məhəbbət də yaranmışdı. Qızın atası bunu biləndə çox razı qalmış və onları evləndirmək fikrinə düşmüşdü. Lakin Kərbəlayı Qurbanın qardaşı Pullu Məhərrəm bu işi pozmuş və Səhnəbanının göz yaşlarına məhəl qoymadan onu oğlu Mustafaya almışdır.

İlk məhəbbətindən ayrı düşən Ələsgərin yaradıcılığında bundan sonra fələkdən, zəmanədən şikayət yer almağa başlayıb. Getdiyi toylarda və məclislərdə özünün nakam məhəbbətinə həsr etdiyi şeirlərini oxuyub. Hələ nökər olduğu illərdən şeir qoşmağa başlayan Ələsgər bütün ömrü boyu bu uğursuz məhəbbətindən şikayətlənmiş, qırx yaşına qədər subay qalmış, nəhayət, Kəlbəcərin Yanşaq kəndindən olan Nəbinin qızı Anaxanımla evlənmişdir.

Kərbəlayi Qurbanın evindən ayrıldıqdan sonra Ələsgər dövrünün ən görkəmli aşığı, ustadlar ustadı qızılvıngli Aşıq Alının yanında beş ilə qədər şəyird olmuşdur. Bu müddətdə o, püxtələşmiş, qüdrətli aşıq kimi tanınmışdır. Ustadın yanında böyük məktəb keçən Ələsgər təkcə ifaçılıq məsələlərini öyrənmir, eyni zamanda bu sənətin əsas meyarlarından sayılan ədəb və mərifət qaydalarını da mənimsəyir. Aşıq Alı apardığı toy məclislərinin birində Ələsgərlə deyişir. Şəyirdinin şöhrətini qaldırmaq məqsədilə qəsdən ona məğlub olaraq sazını ona təslim etmək istəyir. Ələsgər isə böyük təvazökarlıqla ustadının qarşısında baş əyir. Ona öz ehtiramını bildirir və deyir:

Bir şəyird ki ustadına kəm baxa,
Onun gözlərinə qan damar, damar.

Şəyirdlik dövrünü başa vurduqdan sonra Ələsgər Göyçə ilə yanaşı İrəvan, Naxçıvan, Qazax, Qarabağ, Gəncədə el şənliklərində iştirak edir, toy məclisləri aparır. Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi kimi həm gözəl ifası, həm də bədii yaradıcılığı ilə xalqın sevimlisinə çevrilir. Aşıq Ələsgərin şöhrəti getdikcə ölkəmizin hüdudlarını aşır, qonşu Türkiyə, İran və Dağıstanda da rəğbətlə qarşılanır.

Aşıq Ələsgər oxumamış, yazı-pozu bilməmişdir, lakin dini, tarixi kitab oxuyan dostlarını dinləmiş, mollaların hədislərinə, dərvişlərin sehirli nağıllarına qulaq asmış, soruşub öyrənməyi özünə ar bilməmiş, şifahi yolla çox zəngin bilik qazanmışdır.

Bədahətən şeir qoşub sazla oxuyan bu böyük şəxsdə ürəkdən keçənləri bilmək, kənarda törədilmiş hadisələrdən xəbər vermək kimi fitri qabiliyyətlər də varmış. Göyçə aşıq sənətinin inkişafında, təkmilləşməsində Aşıq Ələsgərin xidməti əvəzsizdir. Onun:

Adım Ələsgərdir, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana,

– misralarından da göründüyü kimi, böyük sənətkar neçə-neçə tanınmış aşıqlarımıza ustadlıq eləmişdir.

Aşıq Ələsgər ustad bir aşıq kimi tanındıqdan sonra çoxları onun şagirdi olmaq, sənəti və yaradıcılığı ilə yaxından tanış olmaq niyyətinə düşüblər. Aşıq Ələsgər də hər kəsi özünə şagird götürməyib. Ustad səsi və istedadı olan, hər şeyin yerini bilənləri aşıqlıq sənətinin incəlikləri ilə tanış edib, onları ustad aşıq kimi yetişdirib. Onun yetişdirmələrindən Göyçənin Daşkənd kəndindən Aşıq Nəcəfin, Nərimanlıdan Aşıq Mikayılın, Aşıq İsanın, Zoddan Aşıq Qasım və Aşıq Ağayarın, Böyük Qaraqoyunludan Aşıq Əsədin, Böyük Məzrədən Aşıq Qiyasın, Zərzibildən Aşıq Nağı və Aşıq Sayadın, Ağkilsədən Aşıq Qurbanın, Cildən Aşıq Yunisin və başqalarının adlarını çıkmık olar.

Aşıq Ələsgər sazı sol əli ilə çalıb, sağ əli ilə pərdələr üzərində gəzib, onun zil, nazik səslə şirin oxumağı olub.

1915-ci ildə sənətkarın ailəsində bədbəxt hadisə baş verir. Həmin il vaxtilə şəyirdi olmuş qardaşı oğlu, həm də kürəkəni Aşıq Qurbanı vaxtsız itirir. Bundan sonra qocaman aşıq bir daha əlinə saz almasa da, yenə bədahətən şeirlər qoşur, zəmanənin haqsızlıqlarına etirazını bildirir.

Araşdırmalarda qeyd olunur ki, mənfur ermənilər 1918-ci ilin martında soydaşlarımıza qarşı soyqırımı törətdiyi zaman sənətkarın doğma eli Göyçə mahalı da talan edilir. Erməni quldur dəstələri əhalini öz dədə-baba yurdundan didərgin salır. İsti ocağından köçməyə məcbur qalanlar arasında ustad sənətkarın ailəsi də vardı. Aşıq Ələsgər Kəlbəcər rayonunun Yanşaq kəndinə pənah gətirir, iki il burada yaşayır.

Sonra Tərtər rayonuna köçür. Bu müddətdə ata-baba yurdu Göyçə eli üçün çox darıxır. 1921-ci ildə Ağkilsəyə qayıdır. Ömrünün son illərini doğma kənddə keçirir. Tez-tez xəyalən keçmiş günlərə qayıdır. Vəfasız dünya, həyat barədə düşünür:

Səksəni, doxsanı keçibdir yaşım,
Əzrayıl həmdəmim, məzar yoldaşım.
Gor deyə tərpənir bəlalı başım,
Daha köç təbilin çal, qoca baxtım.

Azərbaycan aşıq sənətində dərin iz qoyan görkəmli sənətkar 7 mart 1926-cı ildə dünyaya göz açdığı Ağkilsə kəndində vəfat edib.

Aşıq Ələsgərin şeirləri vəfatından bir il sonra ilk dəfə nəşr olunub. Müəllifin "Dağlar", "Bizim dağlar" şeirləri 1927-ci ildə "Yeni kənd" jurnalında dərc edilib.

1972-ci ildə görkəmli sənətkarın anadan olmasının 150 illiyi böyük təntənə ilə qeyd olunub. Bu münasibətlə Azərbaycan Elmlər Akademiyası tərəfindən onun əsərlərinin ikicildlik elmi nəşri hazırlanaraq çap edilib.

Aşıq Ələsgər irsinin toplanıb üzə çıxarılmasında, ustada layiq şəkildə xalqa çatdırılmasında görkəmli alim və şairlərimizin – Hümbət Əlizadənin, Əhliman Axundovun, İslam Ələsgərlinin, Həmid Araslının, Mürsəl Həkimovun, Səttar Axundovun, Osman Sarıvəllinin, Hüseyn Arifin, Məmməd Aslanın, İlyas Tapdığın, Vaqif Vəliyevin və b. böyük və danılmaz xidmətləri olmuşdur. Xüsusən, Aşıq Ələsgər irsinin geniş şəkildə araşdırılmasında, öyrənilməsində, tədqiqində Hümbət Əlizadənin daha çox xidməti olmuşdur. Aşıq Ələsgərin sağlığında kitabı nəşr edilməmişdir. İlk nəşri 1934-cü ildə Hümbət Əlizadənin tərtib etdiyi "Aşıq Ələsgər" adlı kitabı olmuşdur. Bundan sonra müxtəlif illərdə ustadın kitabları dolğunlaşa-dolğunlaşa, təkmilləşə-təkmilləşə nəşrdən nəşrə daha mükəmməl şəkildə çap olunmağa başlamışdır. İldən-ilə onun yaradıcılığına maraq daha da güclənmiş, xalqımızın görkəmli alimləri onun yaradıcılığını bütün yönlərdən, müxtəlif istiqamətlərdən təhlil və tədqiq etmişlər.

Azərbaycanda tarixən çox istedadlı aşıqlar yetişib. Onların arasında isə Aşıq Ələsgər aşıqlar dünyasının sultanı hesab olunur. Elə məhz bu səbəbdəndir ki, Aşıq Ələsgər məktəbinin çox böyük yetirmələri olub. Göyçə mahalının Ağkilsə kəndində dünyaya gələn, yaşayıb-yaradan dədə Ələsgərin şöhrəti Azərbaycanın digər guşələrini də əhatə edib. O, Azərbaycan xalq şeirinin ən böyük nümayəndələrindən və bu şeirin ən uca zirvələrini fəth edən sənətkarlardandır. Dədə Ələsgər aşıq poeziyasını bol həyati müşahidələrlə zənginləşdirib, həm məzmun, həm forma rəngarəngliyi, həm də saf, duru xalq dilindən istifadə baxımından Azərbaycan, ümumən türk şeirinə misilsiz xidmətlər göstərib. Xalqımıza öz sazı və sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət edən

Dədə Ələsgər yalnız qüdrətli bir şair-aşıq kimi yox, həm də tanıyanların qəlbində bir ocaq, pir, bir övliya kimi heykəlləşib.

Qeyd edək ki, Aşıq Ələsgər yaradıcılığına dövlət səviyyəsində həmişə yüksək qiymət verilib. Belə ki, Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə Moskvada böyük sənətkarımızın 150 illik yubileyi qeyd olunub. Eyni zamanda, 1997-ci ildə Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Aşıq Ələsgərin 175 illik yubileyi dövlət səviyyəsində qeyd olunub. Bu ənənə Prezident İlham Əliyev tərəfindən davam etdirilib və dövlət başçısının Sərəncamı ilə 2011-ci ildə ustad aşığın 190 illik yubileyi ölkəmizdə böyük təntənə ilə qeyd edilib.

Bəstəkarlarımızdan Bayram Hüseynli, Qəmbər Hüseynli, Səid Rüstəmov, Hacı Xanməmmədov və başqaları Aşıq Ələsgərin əsərlərinə dillər əzbəri olan musiqilər bəstələmişlər. Ümumiyyətlə, elə bir bəstəkar, xanəndə, müğənni, aşıq təsəvvür etmək olmaz ki, o, Aşıq Ələsgər yaradıcılığına müraciət etməmiş olsun.

Aşıq Ələsgərin həyat və yaradıcılığı daim dövlətimizin və xalqımızın diqqət mərkəzində olub. Onun adına küçə, mədəniyyət sarayı, respublika Xalq Yaradıcılığı evi fəaliyyət göstərir. Onu da xüsusi vurğulayaq ki, təkcə dövlət səviyyəsində deyil, sadə insanlar tərəfindən də Aşıq Ələsgərin zəngin irsi yaşadılır. Belə insanlardan biri də sadə peşə adamı, sürücü Hüseyn Hacıqulu oğlu Həsənovdur. O özünün şəxsi evində - Nərimanov rayonu, Atatürk prospekti 37, mənzil 75-də Aşıq Ələsgər muzeyi yaradıb. 2002-ci ildə yaradılan muzeydə Aşıq Ələsgərə məxsus olan saz, xrom çəkmə və bel kəməri saxlanılır. Muzeydə həmçinin 3000 eksponat, 1500 aşığımızın fotoşəkili, 900 val, şair-aşıqların 500 kitabı, həmçinin 4 ədəd bahalı qrammofon, 3 patefon, lent yazıları, kasetlər və s. qorunur.

Azərbaycan aşıq sənətinin azman ustadlarından söz açılanda ilk yada düşənlərdən biri də Aşıq Ələsgərdir. Bu il böyük sənətkarın anadan olmasının 200 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 fevral 2021-ci il tarixdə Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncam imzalayıb. Sərəncamda Aşıq Ələsgərin xalq ruhunun ifadəsi olan əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etdiyi qeyd olunur. Bildirilir ki, sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir.